

FAİQ QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# BƏHANƏ

... Başqa millətlərdən bizim çox fərqimiz var; əsas fərqimiz ondan ibarətdir ki, biz bir iş görəndə yüz ölçüb bir biçmirik, elə tələm-tələsik nəyisə düzüb-qurmağa can atırıq. Birtəhər yoluna qoyuruq və bir də görürük ki, yoluna qoyduğumuz və birtəhər elədiyimiz o işlər özü bizi yarıyolda qoyub və birtəhər eləyib. Və biz başlayırıq bundan sonra bir başımıza, bir də dizimizə döyməyə ki, vay dədəm vay, bəs biz niyə bu uçurumu vaxtında görmədik?!

... Bax, belə-belə işlər bizi aparıb salır quyunun dibinə. Və bizi quyunun dibindən də heç kim çıxaran deyil. Bircə ümid qalır Allaha. O da tay bizdən üz döndərib ey! Çünki biz hər şeyi yola veririk, bəhanə eləyirik. Nə gəldi deyirik ki, vallah, vaxtım yoxdu, yoxsa əməlli-başlı bir iş görərdik. Yadımıza böyük Üzeyir Hacıbəyovun "Vacib məsələ" felyetonu düşür. Bu felyetonun məzmunu belədir ki, iclasa yığışan müsəlmanlar deyirlər ki, gəlin biz də bir cəmiyyət düzəldək, millətimizi avropalılar kimi irəli aparıb ağ günə çıxaraq. Bəli, o cəmiyyəti yaratmaq üçün bir sədr seçilməlidir. Yığıncaqdakılardan biri deyir ki, elə Məşədi Cəmil savadlı adamdı, həm də dünyanın gərdişindən də xəbəri var, elə onu sədr seçsək lap yaxşı olar. Məşədi Cəmil də deyir ki, təklifinizə görə çox sağ olun, mən sədr olardım, ancaq indi xəstəyəm, doktora getməliyəm. Qoy sədr Hacı Əhməd olsun. Hacı Əhməd də deyir ki, siz nə danışırsınız, mənim işim başımdan aşır, sabah Təbrizə mal dalınca getməliyəm. Elə yaxşısı budur Kərbalayi Cəfəri sədr seçək, həm savadlıdı, həm də bacarıqlı. Kərbalayi Cəfər də deyir ki, ay kişinin uşaqları, mən orucam, heç oruc adamdan da sədr çıxar? Gəlin Hacı Kərimi sədr seçək, o məndən də zirək adamdı. Hacı Kərim də bir bəhanə ilə bu işi boynundan atır. Bir sözlə, millətin məsələsi və taleyi həll olunanda yığıncaqdakı müsəlmanların hamısı bir bəhanəylə aradan çıxır. Biri deyir ki, "xəstəyəm", biri deyir ki, "orucam", biri də deyir ki, "mal dalınca filan yerə gedirəm". Bax, beləcə, millətin dərdi qalır kənarda, "vacib məsələnin" həllini ötür-ötür oyununa salırlar...

Bax, bizim millət həmişə belədi! Ta keçmişdən bu günə qədər nə pis şey varsa, onun qanından hələ də çıxmayıb. Bu nədir? Qoy adını deyək! Bu, bəhanədir! Bu, laqeydlikdir! Bu, səhlənkarlıqdır! Bu, millətin ağır günündə başını yelləyib aradan çıxmaqdır! Hamı deyir ki, əşi, qoy filankıs birinci qabağa düşsün, mənim nə işimə qalıb ey, durum düşüm qabağa və axırda da təpəsi üstə gedib quyuya düşüm! Və bir də "arığın nə işi var ki, qoruqda, vurub qılçını sındıralar".

... İndi qayıdaq bəhanələrə! Axı biz bəhanələrlə yaşayan millətik. Başqa millətlər də belədir. Amma vallah, bu sarıdan bizə o biri millətlər çata bilməz. Çatsa da, keçə bilməz ha! Görün, nə günə üşdük. Düz 3 aydır ölkə prezidenti cənab İlham Əliyev koronavirus bəlasından millətin canını qurtarmaq üçün çox böyük addımlar atıb. Ölkəmizdə çox böyük qabaqlayıcı tədbirlər görülüb. Ən müasir xəstəxanalar koronavirusa yoluxanları qəbul edib. Hətta xarici ölkələrdən ölkəmizə çox baha qiymətə 200 ədəd süni tənəffüs aparatı gətirilib. Bir çox xəstəxanaların yenidən tikintisinə başlanılıb. 6 modul tipli xəstəxana inşa edilir.

Artıq onlardan birinin cənab prezidentin iştirakı ilə açılışı olub və əhalinin istifadəsinə verilib. Ölkədə ilk gündən dövlət səviyyəsində bu virusa qarşı mücadilə aparılır. Təsadüfi deyil ki, Nazirlər Kabineti yanında Operativ Qərargah bu təhlükəni aradan qaldırmaq üçün 24 saat fəaliyyət göstərir. Karantin rejiminin tətbiqi, bir çox məhdudiyyətlərin olması bu virusun geniş yayılmasının qarşısını ala bilmişdi. Təəssüf ki, məhdudiyyətlərin götürülməsindən və yumuşalmadan sonra ölkəmizdə koronavirusa yoluxanların sayı hər gün yüksələn xətlə artmağa başlayıb. Artıq bir gün ərzində 350 nəfərdən çox insan bu virusa yoluxub. Bu nə deməkdir? Bu o deməkdir ki, dövlət öncədən qabaqlayıcı tədbirlər görsə də, əhali karantin rejiminin tələblərinə əməl etmir və əməl etmək fikrində də deyil!

Bütün kütləvi informasiya vasitələri - qəzetlər, televiziyalar və saytlar əhalinin maariflənidirilməsi üçün fasiləsiz olaraq təbliğat işləri aparır. Amma biz insanlar isə hələ də bu virusun böyük təhlükəsinə inanmırıq. Ən azından ona görə ki, ətrafımızda, yaxınlarımızın arasında bu xəstəliyə düçar olanları görmürük. İnanmadığımıza və görmədiyimizə görə də bu xəstəlik ölkədə artıq tüğyan eləməyə başlayıb. Televiziyaların çəkdiyi süjetlərdə Bakı şəhərində karantin rejiminə əhalinin necə əməl etməsi çox böyük maraq doğurur.

Avtobus dayanacaqlarında, marketlərdə, lap küçədə kimdən soruşursan ki, niyə maska taxmırsan, hərə bir bəhanə gətirir?! Biri deyir ki, nəfəs ala bilmirəm, ona görə taxmıram... biri deyir ki, xəstəliyə inanmıram, ona görə vurmuram... biri deyir ki, aptekdə maska tapmamışam... biri də deyir ki, maska cibimdədi, metroya girəndə vuracam... Bir sözlə, böyük Üzeyir bəyin "Vacib işlər" felyetonundakı kimi hərə bir bəhanə gətirir. Vallah, biz heç dəyişməmişik. XIX əsrin sonu, XX əsrin əvvəllərində necə idiksə, elə indi də eləyik. Əynimiz və başımız dəyişib, imkanımız yaxşılaşıb, ancaq təfəkkür və düşüncəmiz həmin dövrün təfəkkür və düşüncəsidi.

Belə-belə bəhanələr və belə-belə işlər gətirib bizi dalana çıxarıb. Artıq indi dövlət məcbur olub daha sərt addımlar atır. Bu sərt addımlar da ondan ibarətdir ki, bu təhlükə böyüməsin, koronavirusa yoluxanların və dünyasını dəyişənlərin sayı çoxalmasın. Artıq aldığımız məlumata görə, xəstəxanaların reanimasiya şöbələrində xəstə o qədər çoxdur ki, yeni xəstələr qəbul etmirlər. Bu isə dəhşətdir! Bu isə xalqı silkələməkdir! Bu isə həyəcan təbilinin səslənməsidir!..

Əgər kimsə buna zarafat kimi baxırsa, tay ona sözümüz yoxdu. Hərçənd ki, mən evdə xanımımı inandıra bilmirəm ki, bu çox qorxulu və dəhşətli bir bəladır. Bu bəlanı Çin, Amerika, Avropa yaşayır. Əgər bu bəla və müsibət biz insanları yuxudan oyatmırsa, deməli, bu millət elə Mirzə Cəlilin, Üzeyir Hacıbəyovun yazdığı kimi qəflət yuxusundan oyanmayan millətdir. Amma oyanmaq lazımdır! Qoy millət oyansın ki, özünü tanısın, bəhanələr eləməsin və bu bəladan çıxış yolu tapsın. Bax, onda böyük Mirzə Cəlilin də, Üzeyir Hacıbəyovun da ruhları narahat olmaz!..